


F.Köçərli adına Respublika Uşaq Kitabxanası

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Zahirə Dadaşova
Korrektor: İlahə Quliyeva
Rəssam: Nigar Mustafayeva
Bədii tərtibat: Aqil Tağıyev



Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.



Jurnalın üz qabığındakı foto: Hüseynzadə Məryəm

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.
Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası



Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.



«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.



**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan


# Göy Qurşağı


UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL 2022 / 4









*Əziz uşaqlar, VIII Beynəlxalq Kitab Sərgisi öz möhtəşəmliyi ilə hər birimizin yaddaşında qaldı. Sərginin foyesində uşaqlar və böyüklər üçün müxtəlif ustad dərsləri, imza saatları, ebru (su üzərində rəsm sənəti) və daha nələr keçirildi. Baxın, dostlar, bütün bunlar sizlərin kitaba olan sevginizi birə- beş artırdı, bir daha kitabı ən yaxın dost kimi ürəkdən sevdiniz. Şuşa ilinə həsr olunmuş sərgidə bir çox kitabların təqdimatı, imza saatları keçirildi. Təqdimatları keçirilən hər bir kitab günəş kimi parladı. Çox sevindim ki, biz "kitaba qayıdırıq". Kitab özü çox böyük mədəniyyətdir. Bu cür sərgilər təkcə kitab yox, həm də ədəbiyyat bayramıdır. Türkiyənin Azərbaycanda keçirilən beynəlxalq kitab sərgisində Fəxri qonaq olması bizi daha çox sevindirdi. Baxın, nə qədər təqdimatlar, görüşlər, mühazirələr keçirildi və biz nə qədər yeni kitabdan xəbərdar olduq. Dostlar, mən sizə bu təqdimatlardan ən möhtəşəmləri haqqında danışacağam.*

# Sevinc Nuruqızı "Pıçıltı" kitabının təqdimatı




*...Terroristlər, ən qəddar insanlar! Mən – yəni narıncı pişik Bozuş, gəlincik Elza və Dovşan – biz hamımız sizə nifrət edirik... Çünki siz dinc insanların evini dağıdırsınız. Heç bilirsiniz, sizin dağıtdığınız evlərdə yaşayan uşaqlar bu gecə necə əzab çəkdilər?! Onların necə qışqırdığını eşitdinizmi?! Siz gördünüzmü, onlar necə dağıntılar altında qaldılar?! Bildinizmi, Aylin və onlarla uşaq indi xəstəxanadadır?! Axı onların nə günahı var idi?! Hələ oyuncaqları demirəm. Qarnı sökülüb, bütün pambıqları tökülüb. Elzanın mavi donunun ətəyi yanıb... Fil, timsah, ayı balası və digərləri hələ də dağıntılar arasındadır... Siz niyə insanların xoşbəxt olmağını istəmirsiniz? Axı siz özünüz də insansınız...*

*Terroristlər, sizdən bütün uşaqlar, oyuncaqlar və heyvanlar adından tələb edirik – bir daha terror hadisəsi törətməyin!*

***Terror nədir? Terror – anaları ağrıdır.***
***Terror – uşaqları ağrıdır.***
***Terror – oyuncaqları ağrıdır.***
***Terror – bütün bəşəriyyət üçün ağrıdır.***

Yer üzünün uşaqları, oyuncaqları və göyərçinləri terrora yox deyir!

TERRORun nə demək olduğunu uşaq yazarımız Sevinc Nuruqızı müharibə dövründə Gəncə terroru qurbanlarına ithaf etdiyi "Pıçıltı" kitabında kövrək, həssas qəlbindən süzülən ağrılı ifadələrlə Siz uşaqlara anlatmağa çalışmışdır.










Yaşamaq haqqı, sevmək və sevilmək haqqı, sevinmək haqqı... Hər insana Yaradandan verilmiş haqları terror bir gəlişində tapdalayır, məhv edir. Onun gəlişi ilə çiçəklər solur, quşlar pərən-pərən olur, evlər, ocaqlar dağılır. Sevgi yox olur, mərhəmət itir, səmimiyyət çiliklənir... Onun gəlişi ilə yer üzünün Günəşi sönür, buludları ağlayır... Terror – bütün dillərdə eyni acını ifadə edir. Bütün ürəklərə eyni ağrını yaşadır. Terror – kiminsə qəddar düşüncəsindən doğur, kiminsə vəhşi planlarını həyata keçirir. Sizə təqdim etdiyimiz bu kitab 2020-ci ilin oktyabrında, İkinci Qarabağ Savaşı zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda həyata keçirilmiş Gəncə terrorundan bəhs edir. Bu kitab terrorun bütün canlılara və cansızlara yönəlmiş ən qəddar silah olduğunun və ən qəddar insanlar tərəfindən törədildiyinin sübutudur.

Kitabın ilk səhifələrində deyildiyi kimi: "Əslində, təbiət pıçıltılarla doludur... Biz eşitmədiyimiz pıçıltılarla... Səsini insana çatdıra bilməyənlərin pıçıltısı ilə... Arzularını səmalara ötürənlərin, istəklərini ağ-gümüşü buludlara pıçıldayanların səsi ilə... Çiçəklərin, böcəklərin, küləklərin pıçıltısı ilə... Quşların, daşların, yağışların pıçıltısı ilə... Dünyanı cənginə alan terrora, müharibələrə "YOX" deyənlərin pıçıltısı ilə... Bu yaşıl, mavi, günəşli planeti uşaqların əlindən alanlara etiraz edənlərin haqq səsi ilə..."

Təqdimatda əvvəlcə "Sultan" cizgi filmi studiyasında çəkilmiş "Pıçıltı" cizgi filminin tanıtım roliki və 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Çiçəyim" uşaq teatrının azyaşlı aktyorlarının ifasında səhnələşdirilmiş "Pıçıltı" kompozisiyası təqdim olundu. Balaca aktyorlar kitabda bəhs olunan Aylinin dostları Bozuş və Portağal adlı iki pişik, Göyərçin, gəlincik Elza və Dovşan terroristlərə öz nifrətlərini bildirmək məqsədilə məktub yazırlar.

Sevinc Nuruqızının Gəncə terrorunun günahsız qurbanları olan uşaqlara ithaf etdiyi "Pıçıltı" bütün canlıların və cansızların məhvinə səbəb olan terrora "YOX" deyənlərin haqq səsidir.







# "Digital Art"da öz dəsti-xətti olan gənc rəssam

# Nigar Mustafayeva





***Müsahibim uşaqların sevimli yazarı Sevinc Nuruqızının "Pıçıltı", Raziyə Rəhimzadənin "Qədim Bakının əfsanələri" kitablarına çəkilən illustrasiyalar, Respublika Uşaq Kitabxanasının təsis etdiyi "Göy qurşağı" uşaq jurnalının personajı-İncəhörümün müəllifi gənc rəssam Nigar Mustafayevadır.***

**İncəhörüm:** Salam, Nigar. İlk növbədə mən İncəhörümü yaratdığına görə sənə təşəkkür edirəm. Yəqin ki, uşaqların xoşuna gəlmişəm. Necə oldu ki, məni belə şəkildə yaratdın? Yəni 4 əlim, eynəkli 4 gözüm, uzaq məsafələrdən belə istedadlı uşaqları hiss edə biləcək buynuzlarım....

**Nigar:** Salam. "Göy qurşağı" uşaq jurnalı müasir uşaqların sevimli jurnalıdır. Bilirsən ki, müasir uşaqlar daha çox kömpyuter oyunlarını, 3D formatda cizgi filmlərini, virtual aləmdə olan maraqlı kitabları çox xoşlayır. Mən də onların maraq dünyasına baş vurub səni belə yaratdım. Yəni, sən 4 əlinlə, uzağı görən iti gözlərinlə bütün informasiyaları əldə edə bilirsən, lazımlı olanları uşaqlara ötürürsən.

**İncəhörüm:** Uşaqların sevimli yazarı Sevinc xanım uzun müddət jurnalın redaktoru olub. Yəqin ki, mənim illustrasiyalarımı görüb bəyənib. Ona görə də "Pıçıltı"ya rəsmlər çəkməyə səni dəvət edib. Elədirmi?

**Nigar:** Əsl həqiqətdə elə deyil. Sevinc xanım demək olar ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının daimi qonağıdır. Yəni, tez-tez onu uşaqlar arasında kitabxanada görərsiniz. Yeni yazdığı "Pıçıltı" kitabı haqqında mənə danışır və mənim 3Ddə rəsmlər çəkdiyimi bildiyindən məni kitaba illustrasiyalar çəkməyə dəvət edir.

**İncəhörüm:** Onu deyim ki, Nigar, mən VIII Bakı Beynəlxalq Kitab Sərgisində, hər iki kitabın təqdimatında oldum. Sənin çəkdiyin rəsmləri çox bəyəndim. Sən necə fikirləşirsən, uşaqların xoşuna gəldimi?

**Nigar:** Bu yaxınlarda sərgidə Raziyə xanımın "Qədim Bakının əfsanələri" kitabının müzakirəsi və imza saatı oldu. Uşaqlara sual verdilər ki, daha çox nə xoşunuza gəldi. Onlar da bir ağızdan dedilər ki, kitaba çəkilən rəsmlər. Mən həmin gün sevincimdən yerə-göyə sığmırdım. Axı, bu mənim kitabın rəssamı kimi uşaqlarla ilk görüşüm idi.

**İncəhörüm:** Nigar, sənə sonuncu sualımı verirəm. Niyə, məhz uşaq əsərlərinə rəsmlər çəkirsən?

**Nigar:** Bilirsən, İncəhörüm. Mən özümü rəssamlıqda tapdığımı düşünmürəm. Uşaq əsərlərinə çəkdiyim rəsmlər daha çox uşaqlara olan sevgimdəndir. Mən uşaqları çox sevirəm. Ona görə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında işləyirəm.










# Raziyə Rəhimzadə “Qədim Bakı haqqında əfsanələr” kitabının imza saatı

Əfsanənin nə vaxt, harada yarandığını kimsə bilmir. Kitabda söylənilən əfsanələr də çox qədim zamanlarda baş vermişdir. “Qız qalası”, “Xəzri və Gilavar”, “Atəşgah”, “Bülbül və qızılgül” və s. əfsanələri oxuduqca paytaxtımızın nə qədər qədim olduğunun bir daha şahidi oluruq.

İmza günü bir müəllifin öz oxucularıyla yaxından görüşüdür. Oxucular müəllifin kitablarını alır, onu imzaladır. Sonra isə kitabı həvəslə aparıb oxuyurlar. Mənə elə gəlir ki, belə gözəl anları yaşayan dostlarım çox xoşbəxtdir. Sərgidə kitabsevərlər həm uşaq yazarının imzalı kitabını, həm də kitabxana tərəfindən sərgi üçün hazırlanmış “Göy qurşağı” jurnalının xüsusi buraxılışını əldə etdilər. Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə keçirilən ”İmzalı görüş” sərgiyə gələn məktəblilərin sevincini daha da artırdı. Uşaqlarla bir arada olmaqdan məmnun olduğunu dilə gətirən Raziyə Rəhimzadə “İmzalı görüş”ün əhəmiyyətli olduğunu vurğulayıb və uşaqların hər birinə həyatda arzularına çatmalarını dilədi. Hər bir uşağın inkişafında mütaliənin çox böyük önəm daşıdığını bildirərək savadlı, intellektual, vətənpərvər, daxili dünyaları zəngin olmaqda tariximizi əfsanələrlə bizə öyərdən kitabların xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etdi. Həmçinin, imza atdığı kitabları əlinə alan müəllif kitabsevər uşaqları görməkdən, onlarla söhbətdən böyük zövq aldığını dedi.

**Görürsünüzmü, uşaqlar, imza saatında həm sevindiniz, həm də sevildiniz!**







## Отрывок из «Легенды о мугаме»

...И вдруг прямо с неба полились какие-то удивительно прекрасные мелодии, которых они прежде никогда не слышали. Эти звуки проникали прямо в сердце, вселяя в души людей надежду в будущее, веру в то, что в этом мире они не одни, а с ними незримо присутствует Бог. Ной и его семья упали на колени и стали молиться, воздавая хвалу и славу Истинному Богу.

А вскоре они увидели птицу над морем и обрадовались: значит, земля близка. Наконец, они увидели верхушку горы и подплыли к ней. Вода потихоньку отступала, а земля стала подсыхать. Ной с семьёй вышли из ковчега и стали молиться, благодаря Бога за спасение. Ной построил жертвенник Господу и совершил жертвоприношение.

Говорят, что эти чудесные мелодии, посланные с небес, и есть та основа, на которой были созданы мугамы, и что первым их исполнителем стал сын Ноя.

Говорят, что в мугаме есть нечто божественное, космическое, мистическое, и с этим трудно не согласиться, ведь мугам идёт прямо из души, а душа – это ведь тоже частица Космоса, не правда ли? Мугам – это жалоба, разговор человека с Создателем. Говорят, что мугам вечен. Может, так же вечен, как и наша Вселенная...



Gəlin birlikdə oxuyaq

# YENİ KİTABLAR BİZİM RƏFLƏRİMİZDƏ






Bu kitab 14 iyul 2020-ci il tarixində Tovuz rayonu ətrafında gedən döyüşlərdə şəhid olan general-mayor Polad Həşimov haqqında xatirələrdən ibarətdir.




Kitab Şuşanın tarixini əks etdirir. Birinci bölmədə Qarabağ xanlığının yaranması, Şuşa şəhərinin əsasının qoyulması, şəhərin məşhur məhəllələrinin və əsas tikililərinin meydana gəlməsindən bəhs olunur. İkinci bölmədə Şuşanın bugünkü siması təsvir edilir.




Kitabda yer alan hekayələrdən hər biri yaşanmış hadisələr və real faktlar əsasında qələmə alınmışdır.




"Vətən Məni Çağırdı" Kitabda şəhid Ziyad Muradovun qələmə aldığı şeirlər yer alib.

Kitabda fədakar insan olmağın sirləri açılmışdır.




Bu albom-kitaba dahi Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuş məqalə və esselər, şeirlər, sözlərinə yazılmış mahnı mətnləri, haqqında çəkilmiş portret şəkillər toplanmışdır.









Şirvanşahların dəyərli xəzinəsini qorumağa and içmiş "Əjdaha qardaşlığı" adlı məxfi təşkilatın üzvləri onların bütün sirrini bilən xaini tapmaq istəyirlər.




Əsər yazıçıya çox böyük uğur gətirib və kitabın motivləti əsasında tamaşa hazırlanıb.




"Kədərlənmə, Zebr" nağılı hələ "ana" deməyi bacarmayan bala Zebr və onu kədərlənməyə qoymayan dostları haqqındadır.




Əsərdəki obrazlar, hadisələr, təsvirlər müəllifin fantaziyasının məhsuludur. Məhz buna görə də əsər hər dövrün uşaqları tərəfindən maraqla oxunur.




Əsərin baş qəhrəmanı yer üzünün səssiz və bulanıq gölməçələrindən birində yaşayan milyonlarla balaca, rəngbərəng balıqdan biri- Balaca Qırmızı Balıqdır.




Bu əsərdə balaca Kiberin başına gələn maraqlı macəralardan – onun yad planetə səyahətindən və pis niyyətli məxluqlara qarşı mübarizəsindən bəhs olunur.




Əsərdə bütün gününü mətbəxdəki divanda yatmaqla keçirən balaca Karlın qardaşından bəhs olunur. Karl onu xilas edən cəsur qardaşı ilə əfsanəvi diyar Nangiyalada görüşəcəyi günün həsrəti ilə yaşayır.




Yeni ilə düz iki saat qalıb. Ərdalan bərbərxanadadır, Atusa hələ də dərzini gözləyir, Məryəm isə güllərini sata bilməyib.




Bu rəngli jurnalda gizlənpaç oyunu bir-birindən maraqlı və əyləncəli şəkillərlə balacalara təqdim olunur.




Kitabdakı məşğul ailə Zəhmətkeş, Təmizkar, Zərif və Çalışqan olmaqla dörd nəfərdən ibarətdir. Onlar kölgələrinin üsyanı ilə qarşılaşır, qəribə hadisələr baş verir...




Qoy o, bizimlə qalsın Əsərdə balaca qəhrəmanın bütün düşüncələri, həyəcanı, hissləri son dərəcə emosional və dolğun boyalarla əks olunmuşdur.



# Zahirə Cabir “Əvvəl Zaman İçində” kitabının təqdimatı




Uşaqlar! Siz yəqin ki, Zahirə xanımı tanıdınız. Əlbəttə, onu kitabxananın Nağıl otağında görmüsünüz, həm də jurnalın demək olar ki, hər nömrəsində yazdığı nağıl və əfsanələri oxumusunuz. “Əvvəl Zaman İçində” kitabı müəllifin ilk kitabıdır. Bilirsinizmi, nağıllar, əfsanələr bu gün də bizə lazımdır. O, təkcə əyləndirmir, həm də adamlarda ədalət və xeyirxahlıq hissləri, geniş düşüncə və cəsarətli fikir yürütmək bacarığı tərbiyə edir. Bu keyfiyyətlər insanlara bütün əsrlərdə lazım olmuş, indi isə daha çox gərəkdir. Çünki müasir dövrümüz fövqəladə hadisələr və kəşflər dövrüdür. Müəllifin kitabı niyə belə adlandırdığını siz kitabı oxuyarkən başa düşəcəksiniz. Qarabağın tarixi ilə bağlı yazılan nağıl və əfsanələr illər keçsə də yazılacaq, uşaq dünyasına öz töhfəsini verəcəkdir. Müdriklər belə deyirlər: Rəvayətlər, əfsanələr, nağıllar elə bir xəzinə, elə dəryadır ki, ən zərif incilər onun qoynunda tapılar. Ən dürlü yaqinlərin, ən dürüst həqiqətlərin işartısı orada görsənər.

Kitabda qədim Qarabağ elində Vətən, yurd məhəbbəti, kişi hünəri, qadın sədaqəti və heyvan vəfasından bəhs edən nağıllar, əfsanələr var. Deyərdim ki, xalqın iftixarı da, könül qubarı da, pünhan arzuları da dağlara, daşlara köçüb, əfsanələrə, nağıllara hopub, zaman-zaman yaşayır. Gəlin, onları incələyə-incələyə bu qədim diyarın tarixini nağıllarda, əfsanələrdə axtaraq.













# Çörək muzeyi

Azərbaycanın Ağdam şəhərində çörək və çörək məmulatları, əkinçilik alətləri və onların tarixi haqqında muzey.

25 noyabr 1983-cü ildə muzey ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat var idi. Muzey Azərbaycan SSR dövləti tərəfindən yerli mədəniyyət abidəsi kimi qorunurdu. Muzeyə bitişik ərazidə təndirxanası olan "Sünbül" kafesi ziyarətçilərə xidmət göstərirdi.

1992-ci ildə Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüş, muzeyi tamamilə məhv etmişdir. Yanğını söndürməyə cəhd göstərilsə də, muzeyi xilas etmək olmadı və nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv oldu. Çörək muzeyinin yerləşdiyi dəyirman XIX əsrin sonlarında rayonun tanınmış nəsillərindən olan Məhəmməd Qarayev tərəfindən inşa edilmişdi. Kompleksə karvansara da daxil idi. Muzey üç əsas bölmədən ibarət idi. Muzeydə 1930-cu illərdə istifadə edilən "Triyer" taxıl təmizləyici qurğusu, əmək alətləri – xış, vəl, çin, oraq, II əsrə aid əl dəyirmanı (kirkirə), "çarçar" adlı taxıldöyən, qədim küp və mətbəx əşyaları sərgilənirdi. Bir zalda sırf taxılçılıq və əkinçiliklə bağlı müxtəlif taxıl növləri, buğdadan hazırlanmış eksponatlar, müharibə dövründə uşaqlara verilən çörək kartoçkaları, eləcə də, buğda dənələrindən düzəldilmiş Azərbaycan xəritəsi nümayiş olunurdu.

Muzeyin divarlarına vurulmuş "Çörək baha olanda ölüm ucuz olar", "Qılınc kəsməyəni çörək kəsər" atalar sözləri də çörəyin müqəddəsliyini, gücünü, qüdrətini bir daha ziyarətçilərin yadına salırdı.

1980-cı illərdə Ağdamda keçirilən "Natəvan" qızlar bayramı, "Xarı Bülbül" beynəlxalq festivalı məhz muzeyə baxışla başlamışdı.

Muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da var idi.

Muzeydə nümayiş olunan eksponatların bir hissəsini muzeyi ziyarətə gələn əcnəbi qonaqlar bağışlamışdılar. Belə eksponatlar arasında ən məşhuru Qalina Konayeva adlı bir qadının Sankt-Peterburq şəhərindən gətirdiyi "blokada çörəyi" idi.

Milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanlar üçün Çörək müqəddəs və ən vacib qida məhsulu sayılır. Buna görə də hər il 16 oktyabrda Ümumdünya Çörək Gününün qeyd olunması təəccüblü deyil.


Aghdam before Armenian occupation.

# Gənc rəssam *Nərmin Abdullayevanın* ecazkar dünyası



Uşaqlıqdan nağıllara olan böyük sevgim böyüyəndə də məni tərk etmədi. Bir çox nağıl kitablarının rəssamı olmaq mənə də qismət oldu. İlk kitabım üçün hələ çox az yaşlarımda illüstrasiyalar çəksəm də ağlıma gəlməzdi ki, nə vaxtsa kitablarımı mağazalardan əldə etmək mümkün olacaq. Hər nağılı böyük həvəslə oxuyub ona maraqlı bir rəsm çəkmək həm çox əyləncəli, həm də çox məsuliyyətli işdir. Çünki, kitabdakı rəsmlər uşaqları özünə cəlb edən birinci amildir. Rəsmlər həm mənalı, həm də rəngarəng və qəşəng olmalıdır ki, uşaqlar o kitabı həvəslə oxumaq istəsinlər.




"Çaşıoğlu Multimedia" şirkətində baş rəssam vəzifəsində çalışdığım illərdə əlimdən çox müəlliflərin həm tanınmış, həm də heç vaxt rastıma çıxmayan müxtəlif ölkələrin xalq ədəbiyyatına məxsus maraqlı nağıl və hekayələri keçdi. Hətta yaxın illərdə də yeni nağıl kitablarına illüstrasiyalar işlədim.

Ən son işlədiyim işim isə Zahirə Cabirin "Əvvəl zaman içində" adlı kitabı oldu. Zahirə xanım mənə kitab haqqında məlumat verəndə zamanın azlığı və işlərimin çoxluğu məni təşvişə saldı, narahat idim ki, lazım olan vaxta çata bilmərəm. Ona görə də ondan xahiş etdim ki, mənə bir neçə nağıl göndərsin, oxuyum. Göndərilən mətnləri oxuduğum zaman, sanki nağıllar aləminə düşdüm. Qarabağın şırıldayan çaylarının, bülbüllərin səsi qulağıma, güllərin ətri burnuma gəldi. Qarabağı qarış-qarış gəzib, bu münbit torpaqların gözəlliyinin, tarixi abidələrinin, gözəl guşələrinin şahidi oldum. Sevginin və doğrunun şər üzərində qələbəsinə bir daha inamım artdı və qərara gəldim ki, az vaxt olsa belə bu kitab üçün illüstrasiyaları çəkəcəyəm. Yeddi nağıl və yeddi əfsanə üzərində işləməli idim. İçimdə bir coşqu vardı, amma hiss və həyəcanımı necə biruzə verəcəyimi bilmirdim. Bir çox cızmaqaralar edirdim, amma tam olaraq ürəyimcə olmurdu. Və nəhayət qərara gəldim ki, öz işləmə üsulumla və eyni zamanda miniatür sənətindən bəhrələnib uşaqlar üçün anlaşılan və rəngarəng şəkillər çəkim.

Çox qısa zamanda, sözün əsl mənasında gecə-gündüz işləyib bir aya şəkilləri hazırlayıb vaxtında çatdırdım.

VIII Bakı Beynəlxalq Kitab Sərgisində "Əvvəl zaman içində" kitabının təqdimatı keçirildi. Təqdimata çoxlu qonaqlar təşrif buyurmuşdu. Zahirə xanım çox həyəcanlı idi. Çünki o adi bir kitab yazmamışdı, o bu kitaba Vətənə olan məhəbbətini , sadiqliyini, həsrətini, göz yaşlarını və nəhayət sevincini ötürmüşdü. Təqdimatın aparıcısı, F.Köçərli adına kitabxananın direktoru Şəhla xanım mənə söz verəndə həyəcandan nə danışacağımı da bilmirdim. Ancaq orda başa düşdüm ki, biz çox mühüm və gözəl bir işə imza atıb, bu işimizin öhdəsindən uğurla gəlmişik.

Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır! Nə gözəl ki, Qarabağa həsr olunmuş nağıl və əfsanələrə illüstrasiyalar çəkmək mənə nəsib oldu. Ümid edirəm ki, uşaqlar da bu kitabı sevəsevə oxuyacaqlar.

***Вице-президент Фонда Гейдара Алиева Лейла Алиева посвятила стихотворение ГОРОДУ ШУША***

Цветок волшебный, на соловья похожий, растет, живет, цветет в горах родных.
И как жила я столько лет вдали от рая?
Пусть мир велик, вместит своих, чужих и остальных!
Но как жила я, столько лет душой скучая?
В стихах должны быть рифма, смысл, слог,
Учиться долго и трудиться надо,
Но у меня в них сердце есть, есть Бог,
И, может неумело, но в них правда.
Как много плакало плакало немых сердец,
Что родины своей за миг лишились.
Волшебный край, ты всех обид рубец,
Мы за тебя и на тебя молились.
Волшебный край я видела во сне,
Как птица над горами пролетала.
Хары буль-буль цвел столько лет в душе,
О Боже, как тебя мне не хватало!
Но Бог велик и празднует добро!
На торжестве, увы, не все, но люди
Домой вернутся. Пусть мое перо
не лучшее, но кто велик не судит!

## “Tarixi Zəfər!”

Bu Zəfər türk əzmi, türk qərarlığı,
Tarixin möhtəşəm qələbəsidir!
Haqqın, ədalətin bərqərarlığı,
Heydər arzusunun təntənəsidir!
Zəfər – bayrağımız, bayraqdarımız,
Zəfər – azad olan torpaqlarımız,
Zəfər – baş tacımız, şah vüqarımız,
Qəzəbin vulkantək püskürməsidir!
Səbrin tükəndiyi sonuncu anda,
Zəfər qazanmaqçün hərb meydanında,
Böyüklü-kiçikli Vətən uğrunda
Xalqın yumruq kimi birləşməsidir!
Bu Zəfər bu gün də zaman, məkanın,
Qisasın, qeyrətin, şərəfin, şanın,
Ordusuyla Ali Baş Komandanın
Şəri məğlub etmək nümunəsidir!
Düşmən də tanındı, dost da tanındı,
Etibar, sədaqət, inam sınandı,
Sönmüş ocaqların çırağı yandı!
Zəfər namərdlərə ibrət dərsidir!
Zəfər and yerimiz – şəhid zirvəsi,
Oyanmış ruhların coşan nərəsi,
Göy Türk yürüşünün hayqıran səsi,
Bu Zəfər Turanın bir müjdəsidir!

Cavanşir Atəşi






Qəhrəmanlarımızı unutmayaq!

# “Qumbara” Tərlan

Vətəni ən gözəl şəkildə sevən vəzifəsini ən yaxşı yerinə yetirəndir. Məhz 44 günlük Vətən müharibəsində canlarını torpağın hər qarışına qurban verməyə hazır olan qəhrəmanlarımız da bu fikrin bariz nümunəsidir.

Tərlan müharibəyə gedəndə 19 yaşı vardı. Valideynləri əslən qan yaddaşımızın unudulmaz şəhərinə çevrilmiş Xocalıdan qaçqın düşmüşdülər. O zaman nə bilərdilər ki, böyük yangı və həsrətlə tərk etdikləri doğma yurdlarının azad olunmasında 29 il sonra oğulları qəhrəmancasına iştirak edəcək. Tərlan 2020-ci ildə hərbi xidmətə çağırılır. Hərbi xidmətdə rabitəçi kursunu keçir. Müharibə başlayanda əsil rabitəçi kimi döyüşə atılır.

Füzuli uğrunda gedən döyüşlərdə minamyot atəşi nəticəsində qarın nahiyəsindən ağır yaralanan yaxın dostunu döyüş bölgəsindən xilas edir. Tərlan məxfi məlumatları digər taborlara çatdırır, ölümdən qorxmur.

Suqovuşan istiqamətində gedən ağır döyüşlərin birində Tərlanın lap yaxınlığındakı çuxura qumbara düşür. Tərlanın yaxınlığında 5-6 əsgər və komandiri vardı. O cəld, bir an içində qumbaranın üstünə atılır. Qumbara açılanda üstündə qoruyucu paltar və rabitə avadanlığı olmasına baxmayaraq, qəlpələr bir neçə yerdən onu dəlib keçir. Lakin döyüşləri tərk etmir, yaralı halda öz vəzifəsini yerinə yetirir. Döyüş yoldaşları bu hadisədən sonra onu “Qumbara Tərlan” çağırırlar. Onun xidmət etdiyi taborun hər bir əsgəri Tərlanın müharibədə göstərdiyi şücaətinə heyran qalmışdı. Xidmət etdiyi taborun adı “canlı rabitəçilər” idi.

Müharibənin gedişatı rabitəçilərin vaxtında çatdırdığı məxfi məlumatlardan çox asılıdır. Elə bu səbəbdən düşmən onu izləyib canlı ələ keçirmək, məxfi məlumatları öyrənmək istəyirdi. Lakin tapşırığa əsasən, məlumatlar vaxtında deyilən məntəqəyə çatdırılmalı idi. Düşmənə əsir düşmək əvəzinə özünü məhv etmək tapşırılmışdı ona.

Bir dəfə döyüşlərin birində ayağından yaralanır. Komandiri güllə yağışı altında onu sürüyüb səngərə qədər gətirir. Amma atılan minamyotun qəlpəsi onun başından dəyir. Bir neçə gün bundan əvvəl komandiri “Sağ qaldığıma görə Qumbara Tərlana borcluyam”, - deyirdi. İndi isə o can borcunu vermis, şəhadətə yüksəlmişdi.

Müharibə bitdi. Əsgərlərimiz zəfər xəbəri ilə geri döndülər. Tərlan qazidir. Anası deyir ki, mən də bir ana kimi hər an nə isə olacağına hazır idim, bu bir müharibədir və müharibədə şəhid olmaq da var, qazi olmaq da. Bu gün oğlum qazi olduğuna görə qürur duyuram”

İbrahimli Abbas
“Hədəf” liseyi, V sinif şagirdi, 12 yaş

Zahirə Cabir

# Canyataq-Gülyataq qızılı

( N A Ğ I L )



Rəssam:
Nərmin Abdullayeva

Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər köhnə hamam içində, hamamçının tası yox, baltaçının baltası, burdan bir tazı keçdi, onun da xaltası yox. Nağıl-mağıl bilmərəm, bilsəm də söyləmərəm, xandan gəlmiş nökərəm, dinmə böyrünü sökərəm.

Biri vardı, biri yoxdu. Bir padşah vardı. Onun Can adlı aman-zaman bir oğlu vardı. Can igidləri başına yığıb ova gedər, at çapıb, ox atardı. Bir gün ov dalınca düşərkən meşədə çırpı yığan gözəl bir qızla rastlaşdı. Qız nə qız, görən bunun camalına heyran qalardı, qaş qara, gözlər sürməyi, boyu sərv. Qız onu görçək ürkək baxışları ilə tez şələsini götürüb getmək istədi. Can atdan düşüb qızdan hansı obadan olduğunu sordu. Qız heç bir söz demədi. Yalnız qorxu, həyəcanla icazə istəyib ordan uzaqlaşdı. Can xeyli vaxt qızın gözəlliyi qarşısında donub qaldıqdan sonra özünü birtəhər ələ alır və evə dönür. Qızın dərdindən rəngi saralır, solur, bir an belə onu unutmur. Xəstələnir. Padşah məmləkətin loğmanlarını sarayına dəvət edir, oğlunun dərdinin əlacını soruşur. Onlar xəstəliyi ilə bağlı heç bir söz deyə bilmirlər. Bir dərviş gəlir, Cana baxır və padşaha bildirir ki, oğlunun xəstəliyi sevgi xəstəliyidir. Oğlunu sevən ata Candan onun kim olduğunu sorur. Can isə gördüklərini danışır, qızın hansı obadan olduğunun bilmədiyini deyir. Atası söz verir ki, o qızı tapıb, onunla Canı evləndirəcək. Atasının ona mərhəmət göstərdiyi görən Can o qızı axtarmaq eşqilə sağalır, ayağa durur. Yenə də meşəyə üz tutur, axtarır, taqətdən düşür, yorulur. Yaxınlıqdakı çaya gedib yuyunmaq, bir az dincliyini almaq istəyir.

Hə, sizə kimdən deyim, Canın meşədə rast gəlib, gördüyü qızdan. Bu qızın adı Gül idi. Körpəlikdən anasını itirmiş, atası dul qadınla evlənmişdi. Analığ ona gün verib, işıq vermirdi. Gününü göy əskiyə döndərmişdi. Evin bütün ağır işlərini ona gördürərdi. Gül hər gün çaya gəlib, ağır səhənglə evlərinə su daşıyardı. Ögey ana Gülün günü- gündən gözəlləşdiyini görüb daha da qəddarlaşırdı. Bütün günü onu işlətməkdən, söyməkdən, təhqir etməkdən həzz alırdı.

Gül də meşədə cavanı gördüyü gündən könlün ona salmışdı. Hər cün çaya gəlir, çayın kənarında məskən salmış salxım söyüdün altında oturub dərdini caya danışır, dərdləşirdi. Və yenə də çaya gəlib səhəngini doldurdu. Gözlərini qaldıranda qarşısında Canı gördü. Gül özünü bir anlıq itirib, çaş-baş qalır. Can onu axtardığını, onu gördüyü gündən yalnız onun eşqilə yaşadığını, sevdiyini bildirir. Gül də ona biganə qalmadığını söyləyir. Nəhayət, Can padşaha istədiyi qızdan danışır, ona bir könüldən min könülə aşiq olduğunu deyir. Padşah oğlu ilə razılaşır və Gülü oğlu üçün istəməyə elçi göndərir. Ögey ana padşahın oğlunun Gülü sevdiyini eşitcək hikkəsindən, paxıllığından az qalır ki, çatlasın. Dərdə düşür. Bütün günü fikirləşir ki, nə etsin. Axır ki, tapır. Gələn elçilərə qızının əvəzində qızıl yatağı istəyir və bu yataqların yalnız Canın əli ilə tapılmasını istəyir. Əri nə qədər onu bu fikrindən daşındırmaq istəyirsə əl çəkmir.

Can, bu yolun gedər-gəlməz olduğunu bilsə də, sevdiyi qızın yolunda qızıl yatağı əldə etmək üçün yola düşür. Yorulmadan, gecə, gündüz bilmədən çayın qırağındakı qayalarda qızıl yatağı axtarır. Gülün eşqiylə sıldırım, adamkeçməz qayalarda külüng vurur. Nəhayət ki, tapır. Həmin vaxt Gül Canı görmək ümidilə çayın kənarına gəlmişdi. Çayın kənarındakı qayalardan Canın külüngünün səsini eşidir. Can həmin vaxt artıq qızıl yatağını tapmışdı. Külüng səsi ara verəndə Gül aşağıdan onu səslədi. Can Gülün səsin eşitdi, tez sevgilisinə qovuşmaq istədi. Qayaların üstündən sanki uça-uça ona qızıl yatağını tapdığını söyləmək istədi. Elə bu vaxt ayaqları yerdən üzüldü, qayadan sürüşdü, ölümcül halda çaya düşdü. Gül onu dizləri üstə aldı, sevgilisinə son anda doyunca baxdı, qayaların üstünə çıxdı, özünü qayadan atmaq istədi. Bu vaxt bir pəri peyda oldu. Onun əllərindən tutub, qayadan aşağı endirdi. Qıza dedi ki, yaxınlıqdakı qalanın arxasında yerdən bir bulaq çıxır, dirilik suyudur. Get o bulaqdan su götür, Canın yaralarına tök, Can sağalacaq. Gül pərinin dediyi kimi etdi, axtarıb bulağı tapdı, dirilik suyundan gətirib Canın yaralarına tökdü. Can gözlərini açdı. İki sevgili yenidən bir-birinə qovuşdu.

Bəli, padşah bu xəbəri eşidən kimi bütün şəhəri xalça-xalı ilə bəzədi. Böyük sevinc, coşqu ilə çıxdı oğlunun, gəlninin qabağına. Analığ bunları gördükdə qan başına vurdu, paxıllıqdan bağrı çatlayıb öldü.

Padşah oğluna qırx gün, qırx gecə toy elədi. Onlar yedi, içdi, yerə keçdilər. Siz də yeyin, için, kama çatın. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl danışanın.

İllər keçir. Həmin qızıl yatağı Canyataq-Gülyataq adı ilə məşhurlaşır. Onların sevgi dastanı dillərdə gəzir. Can və Gül bir-birini sevən bütün aşiqlərə bu qızıl yatağından pay verir.

Danışdığım nağıl Kəlbəcərdəki Canyataq-Gülyataq qızıl yatağı haqqındadır. O yer sevgililərin qovuşduğu yerdir. Ordan nə qədər qızıl daşısalar da, həmin yataqdan qızıl tükənməz, cünki o müqəddəs yer - əbədi sevginin yatağıdır. Oradan çıxan qızıldan həmin yerlərin insanları xeyir görər. Xaincəsinə əl uzadanların apardıqları qızıl isə onlara xeyir gətirməz, gilə dönərək ayaqlara yapışar.





# “Kiçik Ürəklərdə Zəfər Rəngləri”

Uşaqlar, heç bilirsiniz mənim sizə necə şad xəbərlərim var! Kitabxananın elanlarında oxudum ki, Xətai Sənət Mərkəzində “8 noyabr Zəfər Günü”nə həsr olunmuş “Kiçik Ürəklərdə Zəfər Rəngləri” adlı uşaq və yeniyetmələrin rəsm və əl işlərinin sərgisi olacaq. Tez özümü yetirdim ora. Qələbəlik olmasına baxmayaraq demək olar ki, heç bir rəsmi, əl işini diqqətsiz qoymadım. Doyunca, maraqla onlara tamaşa etdim. İnana bilmədim ki, bunlar balaca dostlarımın qızıl əllərinin məhsuludur. Nə deyim, Var olun!!! Əhsən sizlərə!














Sərgidə əbədi əzəli Azərbaycan torpaqlarını, Şuşa, Xudafərin körpüsü, zəfərimizin nişanəsi olan üç rəngli bayrağımızı, xarıbülbülü, qəhrəman əsgərlərimizi özündə əks etdirən 80- dən çox rəsmlər və əl işləri nümayiş olunurdu.

Heç bilirsiniz tədbirin necə nüfuzlu qonaqları vardı? Mən deyim, siz də qulaq asın:

Xalq rəssamı Arif Hüseynov, Respublika “Xatirə kitabı” redaksiyasının baş redaktoru Nəzakət Məmmədova, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Lalə Qəti, şair-publisist Rəfael Tağızadə, 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin diroktoru Elza Orucova və Vətən müharibəsi qaziləri

Sərgidə çox maraqlı musiqi nömrələri də oldu. “Qarabağ bülbülləri” öz məharətləri ilə hamını heyran qoydu. Zəfərimizlə sevindim, qurur duydum, fəxr etdim. Kitabxananın direktoru Şəhla xanım sərgi iştirakçılarının hər birinə teatr tamaşalarına baxmaq üçün bilet hədiyyə etdi.

Dostlar, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının saytının (clb.az) Elanlar bölməsinə tez-tez baxın və belə gözəl tədbirlərdə iştirak etməyə tələsin.













# İlk Cizgi Filmləri

Dünyada cizgi filmlərini sevməyən bir uşaq bəlkə də yoxdur. Nəinki uşaqlar, hətta böyüklər də cizgi filmlərini izləməyi sevirlər.

Hər şeyin bir yaranma tarixi və yaradıcısı olduğu kimi cizgi filmlərin də tarixi vardır. Cizgi filmi adından da göründüyü kimi, "cızmaq, şəkil çəkmək" sözündən meydana gəlib.

İlk cizgi filminin tarixi də belə yaranıb. Şəkillər əllə çəkilib, ard-arda dəyişdirilərək, çəkilmiş şəkillərdəki obrazların hərəkəti təmin edilib. Müasir texnologiyadan xeyli geridə qalan stop-motion (stop-moşn) texnologiyasından istifadə edilərək ilk cizgi filmləri yaranıb.

İlk cizgi film Amerikada və İngiltərədə yaranıb. 1906-cı ildə Amerikada, Ceyms Styuart Blektonun "Humorous Phases of Funny Faces" (Gülməli üzlərin komik mərhələləri) adlı cizgi filmi ilk cizgi filmi kimi qəbul edilir. Biz əlbəttə ki, texnologiyanın olmadığı bir dövrdə qələmlə çəkilən 8 min şəkildən ibarət olan animasiyadan bəhs edirik. Filmin başında, Blekton rəsm çəkən rəssamı göstərirdi. Rəssamın çəkdiyi rəsmlər birdən canlanır və hərəkət etməyə başlayır.





İlk səsli və çox metrajlı cizgi filmi



"Uşaq və buz" animasiya filmi



Ən çox pirat nüsxələri olan cizgi filmi



İlk tam rəqəmsal film

İlk cizgi filmi barədə bir sıra mübahisələr var. Alimlərin fikrincə ilk cizgi filmi 1908-ci ildə, fransız rəssamı Emil Kol tərəfindən hazırlanıb. Rəssam əlləri, qolları, ayaqları çubuqlara bənzəyən obrazları hərəkət etdirərək ilk cizgi filmini lentə alıb. "Fantasmagorie" olan bu cizgi filmin adının mənası isə, "projektor ilə həyata keçirilən oyun" kimi tərcümə edilir. Cizgi filminin müddəti sadəcə 1.5 dəqiqədir.

Cizgi filmlərində ilk heyvan obrazı 1913-cü ildə Disney Smiz tərəfindən çəkilən "Old Dok Yak" adlı qısa şalvarlı keçi olub.

Cizgi filmlərinin ölkə sərhədlərini aşması Uolt Disneyin "Mickey Mouse" adlı cizgi filmi sayəsində olub. Bu cizgi filmi 1928-ci ildə çəkilməyə başlayıb. Yenə də bir başqa uğur, cizgi filmlərində səsdən istifadə Uolt Disneyə aid olub. Bu zamana qədər cizgi filmləri səssiz izlənib.

İlk səsli və çox metrajlı cizgi filmi "Ağbəniz və Yeddi Cücə" Disney tərəfindən lentə alınıb.



# Cizgi filmləri və animasiya muzeyi

Muzey ilk dəfə 2006-cı ildə Britaniya Muzeyinin yaxınlığında açılıb. Muzeyin yaradıcıları iki il muzey üçün uyğun yer axtarışında olublar. Animasiya Muzeyi ölkənin karikatura və komiks irsini qorumaq və nümayiş etdirmək, maarifləndirmək və incəsənət formalarında iştirakı təşviq etmək, Britaniya karikaturaçıları və komikslərinin yeni işlərinə dəstək olmaq məqsədi daşıyır.

Onu rəsmi olaraq Edinburq hersoqu Şahzadə Filip açdı, özü də kral ailəsinin üzvü kimi həyatı boyu bir çox karikaturaların əsas mövzusuna çevrildi.

Bu gün Animasiya Muzeyi yeni ünvanda - Oksford küçəsinin şimalında, Uells Strit 63 ünvanında yerləşir. Yenidən açılan muzeyin dizaynı Britaniya cizgi filmlərinin və komikslərinin vizual dilinə, simvollarına və üslublarına istinad edir. Muzeydə əsas sərgi 1750-ci illərdən bu günə kimi cizgi və komikslərin tarixini əks etdirir. Onun kuratoru məşhur Guardian animatoru Stiv Belldir. Yeni muzey əvvəlkindən daha geniş ərazini əhatə edir.

İngilis yumorundan daha yaxşı bir şey yoxdur, buna görə də bu kiçik muzeyi ziyarət etməyə dəyər. 18-ci əsrdən bu günə qədər cizgi filmləri və komikslər təklif edən Animasiya Muzeyində uşaq klassikalarından tutmuş divar rəsmlərinə, cizgi filmlərinə, hətta mənasız ixtiralara qədər bu muzeydə "cizgi filmi" adlı inanılmaz eksponatlar var.

Dostlar, siz muzeyin Gənc Rəssam Qalereyasında istedadınızı sınaya da bilərsiniz.



Harriet Ziefert

# WHERE DOES KITTY GO IN THE RAIN?

***WHAT IS RAIN?***

*When water heats up, it turns into warm, wet air called vapor. Vapor rises into the sky, where it becomes cold and turns into a cloud. The cloud becomes bigger until it is so heavy that parts of it fall to the ground. What falls? Raindrops! Mommy, Mommy, where's my pet? Kitty's outside getting wet*




***DO CATS LIKE RAIN?***

*No! Water makes a cat's fur fell very heavy. Cats' ears cannot keep water out, and they don't like the way it smells. For Kitty, it's rain, rain go away! Kitty will find a place that's dry. Let's look for Kitty. Want to try?.*





***DO DUCKS LIKE RAIN?***

*When ducks "comb" their feathers with their bills, they leave a layer of oil on top. The oil makes water Slide off. It keeps the feathers that are closest to the duck's body dry and warm. In a lake or in the rain, ducks are waterproof!*

*Raindrops are falling on Mama Duck. She likes the wet and mushy muck.*



***DO SQUIRRELS LIKE RAIN?***

*If it is not raining too hard, a squirrel will curl its tail over its head to make a built-in umbrella! In heavy rains, squirrels stay in their nests to keep dry. Rain won't scare a squirrel away. He stays busy on a rainy day.*



***DO BEETLES LIKE RAIN?***

*A beetle has a hard, shell-like covering that prevents it from getting soaked. Brown beetle's shell is shiny and hard. He doesn't mind a rainy yard.*



***DO WORMS LIKE RAIN?***

*Yes! Earthworms Mostly live an Travel underground, Because they need Moisture---- All the time. After it rains, you will see worms because it is wet enough for them. They can wriggle along much faster above ground. Worms are squirmy on wet ground. They squirm and wiggle all around.*

***DO BUTTERFLIES LIKE RAIN?***

*Rain makes butterflies too cold to fly. They hide out In protected spots, called roosts, until the storm passes. When the sun comes out, so do the butterflies! Under leaves two butterflies rest. Keeping wings dry is what's best.*



***DO BRIDS LIKE RAIN?***

*Some do; some don't. Most small birds tuck themselves away in nests, or the inner branches of a tree or bush, or under anything that will keep the rain off. After a rainstorm passes, you can go outside and listen for all the birdie-chirps! Bird peeks out from a hole in a tree. He says, "Look! No rain on me!"*

***WHERE DID KITTY GO?***

*Look through the book. Can you find a thick bush, a birdbath, a pail, a red doghouse, and a brown shed? Which is the best rainy-day hiding place for Kitty? Mommy, Mommy, look at that. I think I spy my kitty cat!*



***WHAT DO YOU DO WHEN IT RAINS?***

*Stay inside? Put on a raincoat And boots? Use an umbrella? Catch raindrops On your tongue? Stomp in a puddle? Which of these do you like to do? Clouds are gone. The sun is high. Here's my kitty, warm and dry!*

# Bonobo

Bonobo — nəsli kəsilməkdə olan Pan cinsini təşkil edən iki növ meymundan biridir. Cırtdan şimpanze adı ilə də tanınır. Adi şimpanzedən boy və çəkisi ilə fərqlənir, yəni balaca olur. Çəkisi 43 kq (erkəkdə) - 33 kq (dişidə) aralığında olur. Bonobo Belçikada, Tervuren muzeyində tapılan və şimpanzeyə aid olduğu düşünülən kəllə sümüyü üzərində ABŞ anatomisti Harold Kulic tərəfindən 1928-ci ildə kəşf edilmişdir.

"Binqo-Bonqo" "Çita"ya çox bənzəyir, təcrübəsiz bir zooloq onları çaşdıra bilər. Amma əslində burada təzad o qədər güclüdür ki, meymunlara baxıb bunu görməmək mümkün deyil.

Bonobolar şimpanzelərdən nə ilə fərqlənir? Görünüş və vərdişlərdə 10 maraqlı fərqi birlikdə oxuyaq.



## Gözəgörünməz

Şimpanze aqressiyasını onların qrupdakı sıxlığı ilə izah etmək olar. Demək olar ki, 30-a yaxın fərd olan bir böyük ailədə yaşayırlar. Bonoboların qrupunda isə təxminən on fərd var.



## Müxtəlif planetlərdə

Fərqləri yalnız fizioqnomiyada axtarmağa çalışmayın. Hər ikisində üz qara, bəlkə də çəhrayı ola bilər. Kimsə deyəcək ki, bonobo dodaqların rəngləyir - qırmızı dodaqlar qara fonda fərqlənir. Saçın ayrılması hər ikisində olur. Şimpanzenin güclü, əzələli və hündür qamətinin yanında bonobo bir qədər zərif görünür.

## Günəşin altında

Mərkəzi Afrika hər iki primat növü üçün kiçik bir evdir. Konqo çayı yaxınlığındakı tropik cəngəlliyi hər ikisi seçmişdir: şimpanzelər şimal hissədə, bonobolar isə cənubda məskunlaşır. Lakin şimpanzelər Qərbə də yayılıb: Qvineya, Sudan, Uqanda, Nigeriya.



## Müharibə və Sülh

Şimpanzelər onlarla rəqabət apara biləcək hər şeyə qarşı aqressiv, döyüşə daha çox meyillidirlər, bonobolar isə münaqişənin daim sülh yolu ilə həllinə çalışırlar.





## Atan sənin anan deyil

Bonoboları "xanımlar", şimpanzeləri isə kişilər idarə edir. Şimpanzelər daha hiyləgər və ağıllı erkək tərəfindən idarə olunur.



## Həyat axını ilə gedin

Əvvəllər şimpanzelər sudan çox qorxurdular. Əslində, onlar üzə bilirlər. Ancaq "idman"a yalnız başqa seçim qalmadıqda müraciət edirlər. Bonobolar isə üzgüçülük prosedurlarına çox hörmətlə yanaşırlar, baxmayaraq ki, bunu açıq şəkildə pis edirlər. Hətta suyun içindəki çubuqdan yapışacaqlar ki, axın onları aparmasın, yoxsa dəli olarlar. Beləliklə, bonobolar isti yay günlərində sərinlənməyi bacarırlar.



## Zəiflərin gücü

Bonobolar güc baxımından şimpanzelərdən xeyli geri qalır. Hərbi sahədə heç bir cəsarət, heç bir hiyləgər fəndləri yoxdur. Bu arada şimpanzelər döyüşdə daha üstün olurlar. Əgər bəzi şərtlər altında iki primatın həyat yolları kəsişsəydi, o zaman Binqo-Bonqo dueldə belə güclü rəqibə tab gətirə bilməzdi.

Случилось это зимой.  У одной девочки Софии жила на полке удивительная книга. А в книге жили чудесные сказки о приключениях, о добре и зле, о любви, о верности и предательстве, о силе благодарности и волшебстве.

София очень любила книгу. Каждый вечер она устраивалась вместе с мамой на диване и слушала сказки.

Но однажды в гости к Софии пришел мальчик Кирилл. Он был шкодным и непослушным, и сказал он Софии, что книги — это скучно и неинтересно. Куда интереснее играть в компьютерные игры и стрелять из игрушечного пистолета. Кирилл был так убедителен, что София неожиданно для себя поверила ему. И тем же вечером она категорически отказалась от вечернего чтения с мамой. И на следующий вечер тоже, и на следующий.  Но вот спустя неделю девочка почувствовала, что она хочет вновь окунуться в мир сказок и приключений.

Она потянулась к полке, на которой всегда стояла книга, но не обнаружила там её!

— Мама, мама, где моя книга сказок? — закричала девочка.

— А книга ушла от нас, — спокойно сказала мама.

— Как ушла? У нее же нет ног?

— Зато у нее есть волшебные истории, которые умеют и летать, и говорить. Они решили, что больше не нужны тебе и ушли туда, где их любят, ждут и будут читать.

На глаза девочки накатились слезы. Она почувствовала такое отчаяние, что просто упала на диван и горько заплакала.

Мама пожалела дочку и сказала:

— Книжка вернется, если ты хочешь её читать.

— Очень хочу, мамочка!

— Чтобы книжка была уверена, что ты ее больше не обманешь, нужно сделать свою маленькую книгу.

София тут же соскочила, вытерла слезы и побежала в свою комнату. Через час она с гордостью показала маме свое творение. Это была красивая самодельная книжка. София еще не умела писать слова, но зато она написала добрые сказочные истории в рисунках.

У нее вышла удивительная история о том, как злой колдун украл у людей книги, а маленькая смелая девочка прошла через все испытания и вернула книги людям.

Дети и родители, дружите с книгами. В них столько интересного и важного!

***Людмила Поцепун***










# İncəhörümün plastilin labaratoriyası

Tanış olun: bu İncəhörümdür, balaca və maraqlı, sual verməyi çox sevir, plastilin vasitəsilə dünyanı kəşf edir.

Heykəltəraşlığa başlamazdan əvvəl mənim labaratoriyamda məşq edək. Mən sizə müxtəlif modelləri, göstərmək və plastilinlə işləmək üçün alətləri göstərmək istəyirəm. Bunlar diş çubuğu, kibrit, həmçinin kokteyl borusu, pambıq çubuq və qələmdir: onlarla kəsiklər və naxışlar etmək rahatdır. Dostlar, gəlin birlikdə işə başlayaq!



**plastilindən balığın düzəltmə sxemi**

Əvvəlcə balığın əsasını hazır edirik, qalan hissələrini tədricən əlavə edirik. Diş çubuğu ilə üzgəclərə xətlər çəkirik.



**dalğıc kostyumunu hazırlayın**



**kosmonavtın skafandrını düzəldin**



**Vulkanı hazırlayaq**



**Göbələk düzəldək**



**Lampa hazırlayaq**



**Arını düzəldək**



**Velosiped düzəldirik**





Bu maraqlıdır...

# Mayak nəyə lazımdır?

Soruşa bilərsiniz: - "Mayak niyə lazımdır?" Mayak elə qurulmuşdur ki, dənizdə olan gəmilər qaranlıqda və ya fırtına zamanı, uzaqdan görünmənin çox zəif olduğu vaxtlarda hərəkət edə bilsinlər. Mayak həmişə yanır. Mayaklar olmasaydı, kapitanlar sadəcə sahilin haradan başladığını bilməzdilər.

## Mayak nə göstərir?

MAYAK, gəmiçilik üçün yararlı sularda və ya onlara yaxın quruda yerləşən qüllə şəklində tikilidir. O, gün ərzində görünən bələdçi rolunu oynamaqla dənizçiləri təhlükə olduqda xəbərdar edir, gəminin təhlükəsiz marşrutunu müəyyən etməyə kömək etmək üçün gecələr fasiləsiz işıq saçır.



## Mayak niyə qırmızı və ağ rəngdədir?



Müxtəlif rəngli işıqlı mayaklar sektor əlamətləridir. Mayakın ağ işığı mayak yaxınlığında gəminin keçməsi üçün təhlükəsiz yer olduğunu göstərir. Qırmızı işıq - yaxınlaşan gəmi üçün təhlükəsiz sektorun solunda olan ərazini göstərir. Yaşıl işıq - müvafiq olaraq sektorun sağ təhlükəsiz sahəsi olduğunu bildirir.





## Mayak işığı nə qədər uzaqdan görünə bilər?

15 dəniz mili - və ya 27,78 kilometr - işıq mənbəyinin mayak adlandırılması üçün minimum məsafədir.

## Mayakı kim yandırır?

Mayak gözətçisi mayakın xidmət qabiliyyətini və işləməsini təmin edən şəxsdir. Əsrlər boyu gözətçinin əsas vəzifəsi mayak işığını gecə-gündüz saxlamaq olmuşdur.

## Mayak simvolu nə deməkdir?

Mayak incəsənət və ədəbiyyatda ümumi simvoldur, lakin onu müxtəlif yollarla şərh etmək olar. Bir tərəfdən mayak xidmətin simvoludur, təhlükəni dəf etməyə kömək edir, çətin vəziyyətdən düzgün çıxış yolunu göstərir. Digər tərəfdən tənhalığın təcəssümüdür, ətrafdakı dünyaya qarşı çıxır.

## İlk mayaklar?

Məlum olan ilk mayak finikiyalılara məxsusdur. Dənizçiliklə məşğul olan və dəniz ticarətində böyük uğurlar qazanan finikiyalılar gecələr sahilə çıxmaq üçün mayakdan istifadə edirdilər. Belə mayaklardan biri də qədim möcüzədən sayılan İsgəndəriyə Mayakıdır. Hündürlüyü 135 metr olan mayak isgəndəriyə limanının rəmzi hesab edilir.

## Dənizdəki mayaklar hansılardır?

Bir qayda olaraq, mayaklar sahildə quraşdırılmış dəqiq stasionar strukturlardır, baxmayaraq ki, bəzən üzən olurlar. Bu halda, onlar xüsusi pontonlara quraşdırılır və dibinə bərkidilir.







## Mayaklar nə üçün idi?

Mayak - böyük su anbarlarının sahillərində quraşdırılmış, çox vaxt qüllə şəklində olan naviqasiya avadanlığı vasitəsidir. Naviqatorun müşahidə etdiyi mənzərəni coğrafi xəritədə müqayisə etmək üçün nəzərdə tutulmuşdur.







